AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

16 FEVRAL 2025-ci il BAZAR № 35 (8083) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ




## İslam ölkələri birliyinin dəyərli, fəal üzvü

### *Azərbaycan yardımlaşma və qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq həmrəyliyə töhfələr verməyə davam edir*

***Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsində ictimaiyyətin diqqətini cəlb edən önəmli məqamlardan biri də dövlət başçımızın Azərbaycanın dünyada yüksək nüfuza sahib olan D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv qəbul edilməsi ilə bağlı səsləndirdiyi fikirlər oldu.***

"Azərbaycan həmişə müsəlman aləminin dəyərli üzvü olmuşdur. Əgər siz İslam Əməkdaşlıq Təşkilatının rəhbərlərinin açıqlamalarına diqqət yetirsəniz, görərsiniz ki, bütün dövrlərdə bu təşkilat, - hansı ki, bütün müsəlman ölkələrini birləşdirir, - Azərbaycanla bağlı çox müsbət fikirdə olub. Bizim İslam həmrəyliyi ilə bağlı addımlarımız, Azərbaycanda İslam dininə olan hörmət, dinlərarası münasibətlər, müsəlman ölkələrinin xətti ilə bir çox tədbirlərin keçirilməsi, o cümlədən IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi. Biz bütün beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də daim müsəlman ölkələrinin maraqlarını müdafiə edirik". Bu fikirləri Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində söyləyib. Dövlət başçısı qeyd edib ki, Azərbaycanın D-8-ə yeni üzv seçilməsi bizim üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir.

Cənab Prezident birmənalı olaraq vurğulayıb ki, bu, bizim üçün növbəti uğurlu addım oldu. Çünki Azərbaycanın bu təşkilata qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir. Bu təşkilat 30 ilə yaxın bundan əvvəl yaranmışdı. Türkiyənin təşəbbüsü ilə və səkkiz ölkədən ibarət idi. Bu illər ərzində əlavə üzv qəbul edilməmişdi. Birinci genişlənmə qərarından sonra qəbul edilən üzv Azərbaycan oldu. Əlbəttə ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda beynəlxalq aləmdə rolunu göstərir: “Biz hesab edirik ki, Türk Dövlətləri Təşkilatı dünya miqyasında ciddi güc mərkəzinə çevrilə bilər. Çünki burada geniş coğrafiya, insan resursları, təbii sərvətlər, nəqliyyat-kommunikasiya xətləri və birlik var. Hesab edirəm ki, D-8 də bu boşluğu doldura bilər”. D-8 bir milyarddan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən bir təşkilatdır. Dünyada 60-a yaxın müsəlman ölkəsi var və məhz Azərbaycan yeni üzv seçildi.

Namizədliyimizi ilk gündən dəstəkləyən Türkiyə oldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə cənab İlham Əliyev 2017-ci ildə Türkiyədə keçirilmiş D-8 Zirvə görüşündə də qonaq qismində iştirak etmişdi. Artıq o vaxtdan Azərbaycanın üzvlüyü ilə bağlı məsələ gündəliyə salınmışdı. Amma təbii ki, bütün üzv ölkələr arasında konsensus olmalıydı və nəhayət, bu əldə edildi.

2024-cü il dekabrın 19-da Azərbaycan təşkilata tamhüquqlu doqquzuncu üzv qəbul edilib. Strateji cəhətdən enerji ilə zəngin ölkə kimi Azərbaycan genişləndirilmiş ticarət yollarından, enerji sahəsində əməkdaşlıqdan və D-8 üzvləri, xüsusilə Türkiyə, İran və Malayziya ilə diplomatik əməkdaşlıqdan faydalana bilər. Azərbaycanın D-8 təşkilatına daxil olması əlavə iqtisadi və geosiyasi dəyər gətirəcək. Ayrı-ayrı üzv dövlətlər və Azərbaycan kimi potensial tərəfdaşlar üçün təşkilat iqtisadi inkişaf, strateji əməkdaşlıq və gücləndirilmiş qlobal təsir imkanları təklif edir. Mövqeyini gücləndirməklə D-8 XXI əsrdə Qlobal Cənub üçün dinamik gücə çevrilə bilər. Bu, təkcə Cənub dəhlizinin deyil, həmçinin Orta Dəhlizin geosiyasi rolunu böyük həcmdə artırır.

Ekspertlərin qənaətinə görə, vahid D-8 təşkilatı Birləşmiş Millətlər Təşkilatı, G20 və Dünya Ticarət Təşkilatı kimi beynəlxalq forumlarda mühüm rol oynaya bilər. Yəni təşkilat bu potensiala sahibdir. Bu kollektiv səs iqlim dəyişmələri, ticarət balanssızlığı və beynəlxalq maliyyə sistemlərində islahatlar kimi qlobal çağırışların həlli üçün vacibdir. D-8 əsasən azad ticarət zonası üçün yol xəritəsi, uyğunlaşdırılmış tariflər və investisiyaların təşviqi daha dərin iqtisadi inteqrasiyaya təkan verə bilər. Nəqliyyat dəhlizləri və rəqəmsal şəbəkələr kimi infrastruktura investisiyalar üzv dövlətlər arasında ticarət və kommunikasiyanı asanlaşdıracaq.

**(davamı 2-ci səhifədə)**

# Azərbaycan yardımlaşma və qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq həmrəyliyə töhfələr verməyə davam edir

(əvvəli 1-ci səhifədə)

D-8 dünyada böyük iqtisadi potensiala malik bir təşkilat kimi tanınır. Üzv ölkələrdə təqribən 1,1 milyard insan yaşayır. 8 ölkənin iqtisadiyyatının həcmi, təxminən 3,8 trilyon dollar təşkil edir. Üzv ölkələrin ticarət dövriyyəsi isə 1,6 trilyon dollar səviyyəsindədir. Yəni dünya ticarət dövriyyəsinin 4,5 faizini təşkil edir. Bütün bunlarla yanaşı, 3 qitəni əhatə edən D-8 4 trilyon ABŞ dollarından artıq ÜDM-ə malikdir. Eyni zamanda 130 milyard dollar ticarət dövriyyəsi həyata keçirir, üzv ölkələrin əhalisinin sayı ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edir. Bu isə həm də o deməkdir ki, D-8 böyük iqtisadi potensiala malikdir.

Bu gün Azərbaycan müstəqil və strateji siyasət yürüdən ölkədir. Həmçinin Azərbaycan dünya arenasında regional və qlobal proseslərdə ikitərəfli və çoxtərəfli münasibətlərə qarşılıqlı faydalı əməkdaşlıq müstəvisindən yanaşan, milli maraqlarından bir addım da geri çəkilməyən azsaylı dövlətlərdən biridir. Ən önəmli məqamlardan biri də ölkənin müstəqil siyasətinin milli maraqlara söykənməsi, bütün güc mərkəzləri tərəfindən qəbul edilməsi, hörmətlə qarşılanmasıdır. Azərbaycanın iqtisadi potensialının, coğrafi mövqeyinin mühüm geostrateji amilə çevrilməsi, təşəbbüslərinin rəğbətlə qarşılanması isə onun etimadlı, məsuliyyətli dövlət imicidir. Prezident İlham Əliyevin "Sözümüz imzamız qədər keçərlidir" fikri Azərbaycan liderinin dövlət başçısı kimi xarakterini və mövqeyini ifadə edir.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət xətti suverenlik, müstəqillik, bir-birinin işlərinə qarışmamaq, müxtəlif bəhanələrlə ölkələrin daxili vəziyyətini gərginləşdirməmək kimi prinsipial əsaslar üzərində qurulmuşdur. Ölkəmiz öz siyasətilə, sərmayə qoyuluşu ilə Cənubi Qafqazda faktiki olaraq, yeni nəqliyyat və energetika xəritəsini yaratmışdır. Bir tərəfi Xəzər üzərindən Orta Asiyaya, bir tərəfi Avropaya uzanan bu böyük coğrafiyada Azərbaycan faktiki olaraq əvəzolunmaz ölkəyə çevrilir. Ölkəmiz İslam həmrəyliyi prinsiplərinə uyğun olaraq, İslam dünyasında birliyin və əməkdaşlığın gücləndirilməsinə sadiqliyini nümayiş etdirir. Ölkəmizdə İslam dininə olan hörmət, dinlərarası harmoniyanın qorunması və müxtəlif mədəniyyətlərin yanaşı yaşaması siyasətinin əsas tərkib hissəsidir.

Azərbaycan bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrinin maraqlarını müdafiə edir. Ölkəmizin nümayəndə heyətləri, xüsusilə BMT çərçivəsində müsəlman ölkələrinin namizədlərinə dəstək verərək həmrəyliyi daha da möhkəmləndirir. Humanitar yardımlar da Azərbaycan dövlətinin siyasətində əhəmiyyətli yer tutur. Ölkəmiz müsəlman ölkələrində baş verən humanitar böhranlara laqeyd qalmamış, həm COVID-19 pandemiyası dövründə, həm də digər böhranlarda fəal rol oynamışdır. Xüsusilə Suriyaya göstərilən yardım bunun bariz nümunəsidir. Azərbaycan nümayəndə heyəti Suriyaya səfər etmiş, konkret yardımlar göstərmişdir. Suriyada Əsəd rejiminin çökməsindən, yeni hökumətin formalaşmasından sonra Türkiyənin ardınca ikinci ölkə Azərbaycandır ki, oraya humanitar yardım göstərdi. Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, ICESCO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurub, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış edib. Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verib. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapıb.



Bu reallıqlar beynəlxalq miqyasda da qeyd edilir ki, Azərbaycan sabitləşdirici, birləşdirici aktordur. Ölkəmiz yerləşdiyi coğrafi məkana uyğun olaraq dövlətləri, xalqları birləşdirir, təşəbbüsçüsü və iştirakçısı olduğu layihələrlə bu rolunu daha da möhkəmləndirir. Cənab İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bir daha bu hədəfi açıqladı ki, biz yeni dünya düzəni prosesinin fəal iştirakçısı olmalıyıq. Sadəcə olaraq, burada yeni nizamın necə olacağını gözləməməliyik. Öz işimizi görməliyik və gündəliyimizi bundan sonra da tətbiq etməliyik. Çünki Cənubi Qafqaz bizim regionumuzdur və Azərbaycan bu bölgənin aparıcı ölkəsi kimi, əlbəttə ki, məsuliyyət nöqteyi-nəzərindən də xüsusi çəkiyə malikdir. Bütün bu fəaliyyətlər Azərbaycanın müsəlman dünyasında güclü və etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirir. Ölkəmiz həmrəylik, yardımlaşma və qarşılıqlı hörmət prinsiplərinə əsaslanaraq İslam aləminin inkişafına dəyərli töhfələr verməyə davam edir.

**Mustafa KAMAL,**
**"Respublika".**